# Vergi Məcəlləsinə 2016-cı ildən qüvvəyə minmiş dəyişikliklər barədə

## Mədən vergisinə edilən dəyişikliklər

*Vergi Məcəlləsinin mədən vergisinə aid 216.2-ci maddəsində dəyişikliklər edilmiş, qeyri-filiz qazıntılarından tutulan mədən vergisinin dərəcələri dəyişdirilmişdir:*

| Mədən vergisinə cəlb olunan qeyri-filiz faydalı qazıntıların adı | Yerin təkindən çıxarılan faydalı qazıntıların hər kubmetri üçün mədən vergisinin dərəcələri (manatla) | | Misallar |
|---|---|---|---|
| | dəyişiklikdən əvvəl | dəyişiklikdən sonra | |
| *Dövlət büdcəsinə ödənilən:* | | | |
| Seolit | 50 qəpik | 1 manat | 50 m³ duza görə ödəniləcək mədən vergisi: 50*6=300 manat |
| Barit | 50 qəpik | 1 manat | |
| Mişar daşları | 50 qəpik | 1 manat | |
| Yüngül doldurucular (keramzit, aqloporit) istehsalı üçüngillər | 50 qəpik | 1 manat | |
| Bentonit gilləri | 50 qəpik | 1 manat | 300 m³ mineral suya görə ödəniləcək mədən vergisi: 300*10=3000 manat |
| Vulkan külü və pemza | 50 qəpik | 1 manat | |
| Kvars qumları | 50 qəpik | 1 manat | |
| Üzlük daşları (mərmər, qabbro, tuflar, travertin, mərmərləşmiş əhəngdaşı) | 1 manat | 1 manat | |
| Sement xammalı (əhəng daşı, mergel, gil, vulkan külü) | 50 qəpik | 1 manat | |
| Yodlu-bromlu sular | 2 qəpik | 4 qəpik | |
| Duz | 4 manat | 6 manat | |
| Qiymətli və yarımqiymətli bəzək daşları | 4 manat | 6 manat | |
| Mineral sular | 6 manat | 10 manat | |
| *Yerli (bələdiyyə) büdcəyə ödənilən:* | | | 250 m³ tikinti qumuna görə ödəniləcək mədən vergisi: 250*1=250 manat |
| Çınqıl xammalı | 50 qəpik | 1 manat | |
| Tikinti qumları | 50 qəpik | 1 manat | |
| Kərpic-kirəmit gilləri | 50 qəpik | 1 manat | |

## Yeni anlayışlar

Vergi Məcəlləsinin 13-cü maddəsi həmin qanunda istifadə edilən əsas anlayışların hansı məna kəsb etdiyini ifadə edir. Bu məqsədlə Vergi Məcəlləsinə 2016-cı ildən qüvvəyə minmiş dəyişikliklərin mahiyyətinə uyğun olaraq 13-cü maddəyə bir neçə yeni anlayış əlavə ediilmişdir. Bunlar aşağıdakılardır:

**(13.2.54) bina**

✦insanların yaşaması, fəaliyyəti, təbiət təsirlərindən qorunması, onlara sosial, mədəni və məişət xidmətlərinin göstərilməsi, istehsalat sahələrinin yerləşdirilməsi, maddi dəyərlərin saxlanması üçün nəzərdə tutulmuş qapalı həcm-fəza quruluşuna malik olan tikinti obyekti.

**(13.2.55) ticarət fəaliyyəti**

✦istehsalçılar tərəfindən özlərinin istehsal etdiyi malların təqdim edilməsi istisna olmaqla, malların təqdim edilməsi ilə əlaqədar sahibkarlıq fəaliyyəti.

**(13.2.56) ictimai iaşə fəaliyyəti**

✦fəaliyyət göstərdiyi xidmət obyektinin ərazisində və ya səyyar qaydada alıcıya istehlak məqsədilə hazırlanmış (bişirilmiş) qida (yeyinti) məhsullarının təqdim edilməsi ilə əlaqədar sahibkarlıq fəaliyyəti.

**(13.2.57) tikinti quraşdırma işlərinə başlama anı**

✦tikintisinə icazə verilmiş tikinti obyektinin layihəsində, habelə Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin 80.4-cü maddəsində nəzərdə tutulan tələblərə riayət edilmiş barəsində məlumatlandırma icraatı tətbiq edilən tikinti obyektinin layihəsinin memarlıq-planlaşdırma bölməsində nəzərdə tutulmuş tikinti obyektinin inşası üzrə bilavasitə tikinti-quraşdırma işlərinə başlama anı.

## Dəm qazı təhlükəsi ilə əlaqədar Fövqəladə Hallar Nazirliyinin əhaliyə müraciəti

Qış mövsümü ilə əlaqədar əhalinin təbii qaza olan tələbatının artması fonunda qaz cihazlarından istifadə zamanı təhlükəsizlik qaydalarının pozulması dəm qazı təhlükəsi yaradır. Ölümlə nəticələnə bilən bu təhlükə ilə üzləşməmək üçün aşağıda göstərilən qaydalara əməl edilməlidir:

—qaz cihazı saz və standartlara uyğun olmalı;

—cihaz olan məkanın hündürlüyü 2 metr 20 santimetrdən az olmamalı;

—havaçəkən sistem işləməli, nəfəslik açıq olmalı;

—hamam otağında ventilyasiya borusu, qapının aşağısında dəliklər olmalı;

—tüstü bacaları ildə iki dəfə təmizlənməlidir.

**Yadda saxlayın! Dəm qazı iysizdir, hiss edilmir! Ondan zəhərlənmənin əlamətləri:** baş ağrısı, baş gicəllənməsi, ürək bulanması, halsızlıq.

Dəm qazından zəhərlənmiş insanı təmiz havaya çıxarıb, nəfəsalmasını çətinləşdirən geyimlərdən azad etmək, təcili tibbi yardım çağırmaq lazımdır!

**Unutmayın:** Qaydalara biganəlik həyatımıza təhlükədir!

**Təhlükə zamanı 112-yə zəng edin!**

## Qəbələ Suvarma Sistemləri İdarəsi

*2016-cı il üçün kotirovka sorğusu*

**ELAN EDİR**

1.Tikinti materiallarının alınması.

2. «UAZ», «Niva», «Hundai İX -35», «QAZ-53», «QAZ-52», «Mersedes Benz», «Kamaz 65115», «Kamaz betonqarışdıran», «İveco Traller» avtomaşınları üçün ehtiyat hissələrin alınması;

3. «T-150››, «UMZ-65», «MTZ-80», markalı traktorlar üçün ehtiyat hissələrin alınması;

4. «EO-2621», «Bereks», «Ekskavator JCB» markalı ekskavatorlar üçün ehtiyat hissələrin alınması;

5. İnventar və avadanlıqların, tikinti materiallarının, təsərrüfat malları və dəftərxana ləvazimatlarının və sair malların alınması;

Kotirovkalar **fevral ayının 27-dək** qəbul edilir.

**Ünvan:** Qəbələ rayonu, Əziz Əliyev küçəsi-12.

**Telefon:** (02420)35-2-46, (02420) 35-4-41.

**Katirovka komissiyası.**

## Azərbaycan Respublikası Səhiyyə Nazirliyi Qəbələ Müalicə-Diaqnostika Mərkəzi aşağıda adları qeyd olunmuş xərc maddələri üzrə katirovka sorğusu

**ELAN EDİR**

**1. Dəftərxana və təsərrüfat xərcləri.**
**2. Mətbəə xərci.**
**3. İdarənin digər xərcləri.**
**4. Cari təmir.**
**5. Yumşaq inventar, yataq ləvazimatları və xüsusi geyimlər.**
**6. Ərzaq məhsulları.**
**7. İnventarın alınması.**
**8. Digər alışlar və xidmətlər.**
**9. Sair xidmətlər**

Sorğular **25 yanvar 2016-cı il** tarixinə kimi qəbul olunur.

**Əlaqə telefonu:** 024-20-5-41-58.

**Tender komissiyası.**

Qəbələ Rayon Aqrar İslahat Komissiyası tərəfindən 26 fevral 2001-ci il tarixli 03 saylı qərarla Qəbələ şəhər sakini **Əliyev Kamran İmran oğlunun** adına verilmiş JN-2704 G №-li (kodu 40601004) olan **Torpağın mülkiyyətə verilməsinə dair Şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.

Şəki Dövlət Yol Polisi 8 saylı RİQB tərəfindən 6 fevral 2004-cü il tarixdə Qəbələ rayonunun Bum qəsəbə sakini **Bayramov Gülağa Fərrux oğlunun** adına verilmiş

## ELANLAR

AA 739248 №-li «BC» kateqoriyalı **sürücülük vəsiqəsi** itdiyi uçün etibarsız sayılır.

Qəbələ Rayon Aqrar İslahat Komissiyası tərəfindən 22 noyabr 1997-ci il tarixli 25 nömrəli qərarla Mıxlıqovaq kənd sakini **Dəmirova Azadə Əzim qızının** və ailə üzvlərinin adına verilmiş JN:627 (kod 40614018) olan **Torpağa mülkiyyət hüququna dair Dövlət Aktı** itdiyi üçün etibarsız sayılır.

*Redaktor*
*O. Ə. Məmmədov.*

*TƏSİSÇİLƏR:*
Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.
*Məsul növbətçi:*
*Q. C. Səmədov.*

ÜNVANIMIZ:
AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 56.
Redaktor: (024)20 5-19-14.
Ümumi: (024)20 5-15-56.
e-mail: gabalanews@mail.ru

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeyddən keçmişdir.
Lisenziya AV № 022611
«Kapitalbank»ın Qəbələ filialında hesab № Az36AİİB 33080019444900218149
VÖEN: 4400103601

Qəzet «Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində «E-Q» MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.
Tiraj 2080.
Oxucu məktubları geri qaytarılmır.